**AZƏRBAYCAN RESPUBLİKASININ NAZİRLƏR KABİNETİ**

**S Ə R Ə N C A M**

**№ 202s**

*Bakı şəhəri, 2 avqust 2012-ci il*

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2003-cü il 2 iyun tarixli 74 nömrəli qərarı ilə təsdiq edilmiş "Dövlət büdcəsinin Ehtiyat Fondunun vəsaitindən istifadə Qaydaları"nın 4-cü hissəsinə əsasən, məcburi köçkünlərin müvəqqəti məskunlaşdıqları Binəqədi rayonundakı Azərbaycan Dövlət İqtisad Universitetinin 4 nömrəli yataqxanasında 2012-ci il 1 avqust tarixində baş vermiş yanğın nəticəsində zərər çəkmiş 114 nəfərdən ibarət 32 məcburi köçkün ailəsinin sosial müdafiəsi məqsədi ilə Azərbaycan Respublikasının Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin təklifini nəzərə alaraq:

1. Binəqədi rayonundakı məcburi köçkünlərin müvəqqəti məskunlaşdıqları Azərbaycan Dövlət İqtisad Universitetinin 4 nömrəli yataqxanasında 2012-ci il 1 avqust tarixində baş vermiş yanğın nəticəsində zərər çəkmiş məcburi köçkün ailələrinə maddi yardım göstərilməsi məqsədi ilə:

- ailə tərkibi 1 (bir) nəfərdən ibarət olan ailəyə – 1000 (min) manat,

- ailə tərkibi 2 (iki) nəfərdən ibarət olan ailəyə – 1800 (min səkkiz yüz) manat,

- ailə tərkibi 3 (üç) və daha çox nəfərdən ibarət olan ailənin hər bir üzvünə – 800 (səkkiz yüz) manat olmaqla, 2012-ci ilin dövlət büdcəsinin Ehtiyat Fondundan Azərbaycan Respublikasının Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinə 92200 (doxsan iki min iki yüz) manat məbləğində vəsait ayrılsın.

2. Azərbaycan Respublikasının Maliyyə Nazirliyinə tapşırılsın ki, bu sərəncamın 1-ci hissəsi ilə ayrılan vəsaitin müəyyən olunmuş qaydada ödənilməsini təmin etsin.

3. Bu sərəncam imzalandığı gündən qüvvəyə minir.

**Azərbaycan Respublikasının**
**Baş naziri** **Artur Rasi-zadə**